**UOT – 811.11.-112**

# CÜMLƏ ÜZVÜ OLMAYAN VAHİD CÜMLƏ OLA BİLƏRMİ?!

**Sərdar Zeynal**
**Filologiya elmləri doktoru, professoru**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Bakı, Azərbaycan**
serdarzeynal.53@gmail.com
https://orcid.org/0000-0002-5377-6035

**Xülasə**

Məqalədə XX əsrin 50-ci illərindən başlayaraq qrammatika dərsliklərinə daxil edilən “Söz-cümlə” və “Üzvlənməyən cümlələr” haqqında danışılmış, dildə tədqiqat obyekti olan bu bölmələrin kitablara və dərsliklərə yanlış olaraq salındığı qeyd edilmişdir. Bu cür nitq vahidlərinin əslində üslubiyyat fənninin tədqiqat obyekti olduğu nümunələrlə əsaslandırılmışdır. Cümlədə bitkinlik, modallıq, predikativlik, intonasiya olmalıdır. Bu əlamətlər yoxdursa, deməli cümlə də yoxdur. İnsan təfəkküründə formalaşan fikir dilində və yazıda sözə çevrilməyincə o cümlə ola bilməz. Dilimizdə söz cümlə adlandırılan vahidlər müəyyən üslubi məqamlarla bağlıdır. Bu sahə isə məntiqin, üslubiyyatın tədqiqat obyekti ola bilər və bu haqda dərsliklərdə danışılmalıdır. Leksik mənası olmayan, hər hansı suala cavab verməyən və ayrılıqda cümlə üzvü kimi çıxış etmək iqtidarında olmayan sözlərin cümlə hesab edilməsi məntiqi baxımdan doğru deyildir. Cümlə ancaq və ancaq cümləni təşkil edən üzvlərdən ibarət olmalıdır. Məqalədə belə qərara gəlinir ki, əgər cümlə üzvlərə ayrılmırsa, deməli burada cümlə üzvü yoxdur. Çünki cümlə adlanan nitq vahidində üzv yoxdursa, onda o nitq vahidini cümlə adlandırmaq olmaz.

**Açar sözlər:** dərslik, cümlə, qrammatika, söz-cümlə, üzvlənməyən cümlə, cümlə üzvü, sintaksis, morfologiya, sadə cümlə, leksik vahid.

## МОЖЕТ ЛИ БЫТЬ ОДНО ПРЕДЛОЖЕНИЕ БЕЗ ЧЛЕНА ПРЕДЛОЖЕНИЯ?!

**Сардар Зейнал**
**Доктор филологических наук, профессор**
**Азербайджанский Государственный Педагогический Университет**
**Баку, Азербайджан**

**Резюме**

В статье говорилось о «Слове-предложении» и «Неограниченных предложениях», которые были включены в учебники по грамматике 50-х годов 20 века, и отмечалось, что эти разделы, являющиеся объектом исследования языка, были включены ошибочно. в книгах и учебниках. На примерах обосновывается, что именно такие речевые единицы и являются объектом изучения стилистики. Предложение должно обладать исчерпанностью, модальностью, предикативностью и интонацией. Если знаков нет, то и приговора нет. Оно не может быть предложением до тех пор, пока идея, сформировавшаяся в человеческом мышлении, не преобразуется в слова в языке и письме. В нашем языке единицы, называемые словами и предложениями, связаны с определенными стилистическими моментами. Эта область может быть объектом исследования логики и стиля и должна обсуждаться в учебниках. . Логически некорректно считать слова, которые не имеют лексического значения, не отвечают ни на один вопрос и не способны функционировать в составе предложения отдельно. Предложение должно состоять только из членов, составляющих предложение. В статье делается вывод, что если предложение не разделено на части, то части предложения нет. Потому что если речевая единица, называемая предложением, не имеет члена, то эта речевая единица не может называться предложением.

**Ключевые слова**: учебник, предложение, грамматика, предложение, нечленное предложение, член предложения, синтаксис, морфология, простое предложение, лексическая единица.

## CAN THERE BE A SINGLE SENTENCE WITHOUT A SENTENCE MEMBER?!

**Sardar Zeynal**
**Doctor of philological sciences, professor**
**Azərbaijan State Pedagogical University**
**Baku, Azerbaijan**

**Summary**

The article talked about "Word-Sentence" and "Unbounded Sentences", which were included in grammar textbooks from the 50s of the 20th century, and it was noted that these sections, which are the object of research in the language, were wrongly included in books and textbooks.It is justified by examples that such speech units are actually the object of study of stylistics. The sentence should have exhaustion, modality, predicativeness, intonation. If there are no signs, then there is no sentence. It cannot be a sentence until the idea formed in human thinking is transformed into words in language and writing. In our language, the units called words and sentences are related to certain stylistic points. This area can be a research object of logic and style, and it should be discussed in textbooks. It is not logically correct to consider words that have no lexical meaning, do not answer any question, and are not able to function as part of a sentence separately. A sentence should consist only and only of the members that make up the sentence. The article concludes that if the sentence is not divided into parts, then there is no part of the sentence. Because if the speech unit called a sentence does not have a member, then that speech unit cannot be called a sentence.

**Key words:** textbook, sentence, grammar, sentence, non-member sentence, sentence member, syntax, morphology, simple sentence, lexical unit

**Annotasiya.** Tədqiqat işində Azərbaycan dilinə aid qrammatika kitablarında söz cümlə adı ilə təqdim edilən dil vahidlərindən bəhs edilmişdir.

**Aktuallıq.** Leksik mənası olmayan, hər hansı suala cavab verməyən və ayrılıqda cümlə üzvü kimi çıxış etmək iqtidarında olmayan sözlərin cümlə hesab edilməsi məntiqi baxımdan doğru deyildir. 100 ildən çox müddətdə qrammatika kitablarında əks olunmayan, son dövrlərdə dərsliklərə gətirilən bu vahidləri cümlə adlandırmaq düzgün deyil.

**Metod.** Məqalədə təsviri yöndə araşdırma aparılmış, müasir üsul və metodlardan istifadə olunmuşdur.

**Giriş.** Son dövrlərdə Azərbaycan dilinin qrammatikasına aid nəşr olunan dərsliklərdə "Üzvlənməyən cümlələr" adlı bölmə verilir. İndiyə qədər nəşr olunan dərsliklərdə uzun illər ədat, nida və modal sözlərin sırasına daxil edilən ayrı-ayrı sözlər, yəni leksik vahidlər bugünkü dərslikdədə ayrıca müstəqil cümlə kimi qəbul edilib araşdırılır.

Haqlı yerə oxucularda belə bir sual yaranır: – Morfologiyanın tədqiqat obyekti olub, köməkçi nitq hissələri kimi qəbul edilən (köməkçi nitq hissələrini əsas nitq hissələrindən ayıran əsas xüsusiyyətlər hər kəsə məlumdur) və öz məna və vəzifəsinə görə qrammatikada ədat, nida və modal sözlərin sırasına daxil edilən dil vahidləri necə olur ki, müəyyən bitkin fikri bildirən cümləni əvəz edə bilir?!

Leksik mənası olmayan, hər hansı suala cavab verməyən və ayrılıqda cümlə üzvü kimi çıxış etmək iqtidarında olmayan söz necə olur ki, birdən-birə bir cüməlnin yükünü öz üzərinə götürür, onu əvəz edir?!

Təqribən son 100 ildə nəşr olunan dərslik, yaxud elmi əsərlərə nəzər saldıqda bu cür baxışın son dövrlər meydana çıxdığının şahidi oluruq.

Hər bir qrammatik anlayışa baxış dəyişə bilər, lakin bu baxış real faktlara əsaslanmalıdır. Azərbaycan dilinin qrammatikasının bəzi bölmələri ilə bağlı söylənilən fikirlərə diqqət etdikdə

görürük ki, bəzi məqamlarda üslubiyyata aid olan məsələlərlə qrammatikaya aid olan məsələlər qarışıq salınır, onlar obyektiv araşdırılmır.

Azərbaycan dilinin qrammatikasında düzgün yanaşılmadan izah edilən aid anlayışlardan biri də yuxarıda dediyimiz kimi "üzvlənməyən cümlələr" məsələsidir.

Hələ keçən əsrin əvvəllərində nəşr olunan dərsliklərdə cümləyə necə tərif verilir, cümənin tərkibi nədən ibarətdir və əsas xüsusiyyətləri nədir, tam olmasa da, qeyd edilir.

Ə.Babazadənin 1934-cü ildə ibtidai məktəblər üçün Azərnəşr Tədris Pedaqoji şöbəsi tərəfindən nəşr olunan dərsliklərdə cümləyə belə bir tərif verilir: "Söz ilə deyilmiş və ya yazılmış bir fikir cümlə adlanır" [6, səh.4].

Bu tərifdən sonra cümləyə aid olan xüsusiyyətlər çox yığcam şəkildə sadalanaraq yazılır: "Cümlənin axırında səs alçalır, arada bir az dayanmaq lazım gəlir. Belə cümlələrin axırında nöqtə qoyulur" [6, səh.6]. Bu dərslikdə cümlənin intonasiyaya görə üç növünün – sual, nida və nəqli olduğu qeyd olunur.

Ə.Babazadənin müəllifliyi ilə nəşr olunan dərslikdə cümlə, onun xüsusiyyətləri, növləri (intonasiyaya görə - S.Z) haqqında çox yığcam danışılsa da, həmin ildə dosent İ.Həsənov və A.Şərifovun müəllifliyi ilə nəşr olunan "Qramer" (Orta məktəb üçün, ikinci hissə, 1. Fonetika, 2.Sintaksis) dərsliyində "Cümlə" bəhsinə geniş yer verilmiş və əhatəli şəkildə izah edilmişdir.

Bu kitabda cümlənin özü haqqında danışılmasa da, cümlənin intonasiyaya, quruluşa görə növləri geniş şəkildə izah edilir.

Cümlədən danışan müəlliflər cümlənin quruluşca sadə və mürəkkəb olduğunu qeyd edib, sadə cümlənin 9 növünün olduğunu göstərirlər: "Müxtəsər cümlə" (yalnız baş üzvərdən ibarət – S.Z); 2. "Müfəssəl cümlə" (ikinci dərəcəli üzvlər də iştirak edən cümlə); 3. "Sual cümləsi"; 4. "Nida cümləsi"; 5. "Nəqli cümlə"; 6. "Şəxsli cümlə"; 7. "Şəxssiz cümlə"; 8. "Müsbət və mənfi cümlələr" (Fikri təsdiq üçün söylənən cümlə müsbət, inkar üçün söylənən cümlə mənfi cümlə – S. Z.) və 9. "Tam və naqis" cümlələr (Nitqi qısaltmaq üçün müəyyən üzvü buraxılan cümlələr – S. Z.) [6,s.25-26].

Bu cümlə növlərinə diqqət etdikdə yalnız "Tam və naqis" cümlələrin bugünkü dərsliklərə daxil edilən "üzvlənməyən cümlələr"ə uyğunluğu ortaya çıxır. Bu uyğunluq da çox sadədir. Bu cümlələrdə, yəni tam və naqis cümlələrdə əsasən məqsədli şəkildə mübtədanın və ya xəbərin ixtisarından söhbət gedir. Bütün cümlə uzvləri cümlədə öz yerini qoruyub saxlayır.

Sadə cümlənin quruluşu haqqında danışan müəlliflər yazır: "Müxtəsər cümlə yalnız mübtəda və xəbərdən, müfəssəl (yəni baş üzvlərlə yanaşı, 2-ci dərəcəli üzvlər də iştirak edən cümlə – S. Z.) cümlə isə mübtəda və xəbərdən başqa tamamlıq və zərfdən ibarət olur" [Yenə orada, səh. 27] (Bu kitabda bir cümlə üzvü kimi təyinin adı qeyd olunmur – S. Z.).

Kitabda müəlliflər sadə cümlə haqda yazır: "Normal olaraq sadə müfəssəl cümlənin quruluşu belədir: 1) Cümlənin başında mübtəda, 2) sonra zərf, 3) bundan sonra da tamamlıq və axırda da 4) xəbər olur" [6, səh.27].

Dərsliyin 27-ci səhifəsində cümlə üzvlərindən bəhs edən müəlliflər yalnız mübtəda, xəbər, zərflik və tamamlığın adını qeyd etsələr də, dərsliyin 28-ci səhifəsində "Sadə müfəssəl cümlə üzvlərini göstərən sxemdə "ikinci dərəcəli üzvlər"in sırasında təyinin də adını qeyd edirlər.

Bu kitabda da cümlə üzvlərindən bəhs edən mülliflər cümlədə cümlə üzvlərindən heç olmasa birinin və ya bir necəsinin iştirakını vacib sayır.

Azərbaycan Dövlət Universitetinin 1959-cu ildə çap olunan "Müasir Azərbaycan dili" kitabında "söz cümlə", yaxud "üzvlənməyən cümlələr" adlı termin işlədilməyib. Ümumiyyətlə, kitabda bu mövzunun adı belə çəkilməyib. Lakin Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatının 1959-cu ildə nəşr etdirdiyi "Azərbaycan dilinin qrammatikası" II hissə, (sintaksis) əsərində söz-cümlə ilə bağlı geniş məlumat verilmişdir. Redaksiya heyətinin imzası ilə giriş əvəzi verilən "Bir neçə söz" adlə məlumat xarakterli mətndə bu haqda yazılır: "Azərbaycan dilinin elmi qrammatikasını yaratmaq dilçiliyimiz qarşısında duran mühim və təxirəsalınmaz vəzifələrdən biridir.

İndyə qədər Azərbaycan dili sintaksisinin bir çox məsələlərindən bəhs olunmamış, bir sıra məsələlər yalnış şərh edilmiş, bəzi mövzular isə düzgün olmayaraq sintaksisə daxil edilmişdir" [2, səh.5]. Girişdə müəlliflər bəzi mövzuların qrammatika kitablarına salınmadığından, bəzi mövzuların

yersiz salındığından şikayətlənirlər. Elə bizim bu gün qrammatika kitablarına salınan "Üzvlənməyən cümlələr" (Söz-cümlələr və vokativ cümlələr) bölməsi kimi.

1959-cu ildə nəşr edilən "Azərbaycan dilinin qrammatikası"nda "Söz-cümlə" adlanan [2, səh. 292-304] bölmədə söz-cümləyə belə bir tərif verilir: "Üzvlərə ayrılmayan, aydınlaşdırıcı sözlərin köməyi ilə genişlənməyən, heç bir daxili üzv əsasında formalaşdırımayaraq, ancaq öz bütöv kütləsi əsasında formalaşan və yalnız bir sözdən və ya bir söz birləşməsndən ibarət olan təktərkibli cümlələrə söz-cümlə deyilir" [2, səh.292].

Bu tərifin tərkibində işlədilən söz və ifadələrin məzmununa fikir verdikdə açıq şəkildə görürük ki, cümlənin cümlə olması üçün əsas sayılan dil vahidləri və xüsusiyyətlərin heç biri bu tərifdə öz əksini tapmamışdır. Məsələn, yazılr: "üzvlərə ayrılmayan". Cümlə ancaq və ancaq cümləni təşkil edən üzvlərdən ibarət olmalıdır, lakin burada "üzvlərə ayrılmayan"dan söhbət gedir.

Əgər cümlə üzvlərə ayrılmırsa, deməli burada cümlə üzvü yoxdur. Cümlə adlanan nitq vahidində üzv yoxdursa, onda o nitq vahidini necə cümlə adlandırmaq olar?!!!

Söz-cümləyə verilən tərifdə öz əksini tapan ifadələrdən biri də "Heç bir daxili üzv əsasında formalaşmayaraq" ifadəsidir. Əgər cümlə heç bir daxili üzv əsasında formalaşmayıbsa, o necə cümlə adlanır?! Xarici üzv olursa, onda cümlənin cümlə olması üçün ortaya çıxan xüsusiyyətlər nəyə gərəkdir?!

1959-cu ildə (Azərbaycan dilinin qrammatikası, II hissə, sintaksis) nəşr olunan kitabda yazılır: "... Öz daxili üzvlərinə əsasən formalaşan və üzlərə ayrıla bilən sadə cümlələrdən fərqli olaraq, onları üzvlərə ayırmaq və beləliklə də, onlarda bu və ya digər baş və ikinci dərəcəli üzvləri axtarmaq mümkün deyildir " [2, səh. 292].

Ortaya belə bir sual çıxır:– Əgər cümlə kimi qəbul etdiyimiz dil vahidində müstəqil mənaya malik olan söz-cümlə üzvü yoxdursa, onu necə cümlə adlandırmaq olar?!!!

Abituriyentlər üçün yazılıb nəşr edilən "Azərbaycan dili" (Bakı, 2010, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası tərəfindən təsdiq edilmişdir) kitabında cümlə üzvləri haqqında yazılır: "Müstəqil məna kəsb edən, söz və söz birləşmələri cümlədə digər sözlərlə məna və qrammatik cəhətdən əlaqəyə girib sintaktik vəzifə qazanır, suala cavab verib cümlə üzvü olur" [2, 339]. Daha sonra isə yenə həmin kitabda yazılır: Hər bir sözün cümlə üzvü olması üçün müstəqil leksik mənaya malik olmalı, müəyyən suala cavab verməli və cümlədəki sözlərlə əlaqəyə girməlidir" [2, səh. 340].

Əgər belədirsə, onda nə üçün modal sözlər, ədatlar və digər köməkçi sözlərdən ibarət olan cümlələrin olduğu haqqında geniş şəkildə fikirlər söylənilir?!

Məsələn, "Müasir Azərbaycan dili" [10, səh.159] təsdiq söz-cümlələrlə bağlı yazılır:"Təsdiq söz cümlələr aşağıda göstərilən söz və söz birləşmələri ilə ifadə edilir: əlbəttə ki, sözsüz ki, şübhəsiz ki və s."

Bu dil vahidlərinin cümlə vəzifəsində çıxış etmələrini təsdiqləmək üçün aşağıdakı kimi nümunələr verilir: Məsələn: "Bəhram mənim kimi bir qız sənin kimi bir oğlanı sevməsə, ərə getməz, deyilmi? [Bəhram] Əlbəttə ki, elədir. Fəqət istədiyini də sevə bilərsən. Demək, siz tacir deyilsiniz? Əlbəttə, yox...dedim" [10, səh. 294-300]. Bu cümlələrdən birincisində "əlbəttə ki", ikincisində isə "əlbəttə" ara sözləri söz-cümləyə nümunə göstərilib.

Cümlələrdən də görünür ki, həmin cümlədə işlənən "əlbəttə ki" və "əlbəttə" modal sözləri cümlə kimi yox, cümlədəki fikrə münasibət bildirən ara söz (modal söz) kimi işlənmişdir. Əgər "əlbəttə ki" modal sözü cümləni əvəz edə bilsəydi, onda heç "əlbəttə" sözündən sonra işlənən "elədir" sözünə - xəbərinə - əvəzliklə ifadə olunan xəbərinə ehtiyac duyulmazdı.

Modal sözlərin dildə vəzifəsi hər kəsə məlumdur, cümlələrdə modallıq əsasən feillərlə öz əksini tapır, lakin ismi xəbərli cümlələrdə xəbərlər bu vəzifəni yerinə yetirə bilmədiyindən, cümlələrdə modal sözlərin işlənməsinə ehtiyac duyulur.

Modallıqla bağlı "Müasir Azərbaycan dili" (II cild, morfologiya, "Elm" nəşriyyatı, Bakı, 1980) kitabında yazılır: "Azərbaycan dilindəki feil şəkilləri və onların müxtəlif zaman forması üç modallığın (həqiqi modallıq, zəruriyyət modallığı, ehtimal modallığı) ifadəsinə xidmət edir... Lakin modallıq kateqoriyasını tamamilə feilin şəkilləri ilə bağlamaq doğru deyldir, çünki dilimizdə feili

xəbərli cümlələrlə yanaşı ismi xəbərli cümlələr də vardır. İsmi xəbərli cümlələrddə modallığı ifadə etmək üçün müəyyən vasitələrdən istifadə edilir” [9, səh.461-469].

1959-cu ildə nəşr edilən kitabda verilmiş “Əlbəttə ki, elədir” cümləsindəki “əlbəttə ki” modal sözünün (nitq hissəsinin), morfologiyada (Müasir Azərbaycan dili” (II cild, morfologiya, “Elm” nəşriyyatı, Bakı, 1980) verilən “Əlbəttə ki, baxaram” [9, səh. 466] cümləsində işlənən “əlbəttə ki” sözünün cümlələrdəki vəzifəsində nə fərq görünür?!! Heç nə!

Heç bir məna fərqi ifadə etməyən eyni dil vahidinin müxtəlif bölmələrin tədqiqat obyekti kimi göstərilməsində obyektivliyə daha çox fikir vermək lazımdır. Bəllidir ki, elə leksik vahidlər vardır ki, onlar sintaktik vəzifəsinə görə cümlənin müxtəlif üzvü kimi çıxış edə bilər. Cümlə üzvü kimi çıxış etmək üçün isə sözlər mütləq yuxarıda sadaladığımız xüsusiyyətlərə malik olmalıdır.

Bununla yanaşı, morfologiyada təsdiq ədatlarının sırasına daxil edilən " bəli", "hə" ədatları da sintaksisdə söz-cümlə qəbul edilir.

Məsələn, morfologiyada təsdiq ədatları ilə bağlı yazılır: “Ədatların bir qrupu cümlədə ifadə olunan fikrin təsdiq olunması barədə razılıq mənası yaradır. Təsdiq ədatları bunlardır: bəli, hə, aha, bəli də”.

Bəli, orası elədir, ancaq əvvəl tək idim.

Hə, qızımı vermişəm, axı bu gecə toy idi [9, səh.458].

Birinci cümlədəki “bəli”, ikinci cümlədəki “hə” ədatı təsdiq bildirən ədatlara nümunə göstərilir.

Sintaksisdə isə “bəli” və “yox” sözləri sintaktik vahid kimi söz-cümlələrin sırasına daxil edilir.

“Azərbaycan dilinin qrammatikası” [II hissə, sintaksis, Bakı, 1959] kitabında isə “bəli” və “yox” sözləri ilə bağlı yazılır: “Xüsusi təsdiq söz-cümlələr, qoyulan suala bilavasitə təsdiq cavabı olur. Öz lüğəvi xarakterinə görə bu cümlələr başlıca olaraq, təsdiq bildirən bəli, hə ədatları ilə...ifadə olunur.

Bəli... Musanı öyrədən də odur... Məni arxadan vuran da o oldu.

Deməli, türkün sözü, o, böyüklərdən olubdur? [Sevil] Hə... lap böyüklərdən, o ki, köhnə padşah xəzinəsi yox idi, paya-payda hamısı ona çatıbdır” [10, səh.294].

Sintaksisdə və morfologiyada nümunə kimi verilən bu cümlələrdə işlənən “bəli” və “hə” sözləri təsdiq bildirən ədat kimi cümlələrdə çıxış etmişdir.

Əgər sözün leksik mənası, cümlə üzvü olmaq hüququ, suala cavab vermə imkanı yoxdursa, onu cümlə kimi götürmək bütün qrammatik qanunların pozulmasına gətirib çıxaracaqdır.

Son dövrlər bədən dili kimi təqdim edilən əl-qol, baş hərəkəti, üz cizgiləri vasitəsilə də insan başqalarının söylədiyi fikirlərə öz münasibətini bildirir. O da insan fikrinin ifadəsinin başqa bir forması kimi ortaya çıxır. Bu cür ifadə edilən fikri cümlə adlandırmaq olarmı?

Müasir dövrdə nəşr olunan qrammatika dərsliklərinə “Söz-cümlə” mətni ilə yanaşı bir “Üzvlənməyən cümlələr” bölməsi də daxil edilmişdir.

Əvvəldə yazdığımız kimi, əgər cümlə üzvlənmirsə, o necə, hansı əsasa görə cümlə adlandırılır, yox əgər cümlədirsə, onda bu cümlələrin üzvləri hansıdır?!!

Haqqında danışdığımız (1959) kitaba "söz-cümlə" bölməsindən sonra “Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və söz birləşmələri” [10, səh.307] adlı bir mətn də daxil edilmişdir. Bu mətndə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərlə bağlı yazılır “Cümləni təşkil edən baş və ikinci dərəcəli üzvlərdən başqa, cümlədə bir qisim sözlər və söz birləşmələri də işlədilir ki, bunlar qrammatik cəhətdən cümlənin heç bir üzvü ilə bağlı olmadığı kimi, cümlə üzvü də ola bilmir. Yəni belə sözlər cümlə üzvləri ilə uzlaşma, idarə və yanaşma cəhətdən əlaqədə olmur” [10,, səh.307].

Mətnin sonunda verilən 653-cü paraqrafda müəllif qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər qrupunu ardıcıl olaraq qeyd edir və sonuncu (b) bəndində yazır: “Cümlənin əvvəlində işlədilən bəli, xeyr, yox, yaxşı sözləri” qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərdir".

Əgər belədirsə, “cümlənin əvvəlində işlənən” qeyd edilən sözlər cümlə üzvləri ilə bağlı deyilsə, onda “söz-cümlə” [səh.292] mövzusunda müəlliflər “Bəli, Musanı da öyrədən odur” [10,

səh.294] cümləsində bəli, "Yaxşı, qızım, qoy sən deyən olsun" [10,səh.295] cümləsində yaxşı, "Bəli, Azər, belə yoldaş idi" [10, səh.295] cümləsində bəli, "Yox, mən səndən ayrılmaram" [10, səh.297] cümləsində yox, "Xeyr, o Vaqifdir, eşqə gələrək, Bəzən qamçılıyır zəmanəsini" [10, səh.297] cümləsində isə xeyr sözünü nə üçün söz-cümlə kimi göstərir.

Bu yanaşma "söz-cümlə" mövzusuna dilçilərin 60 il bundan əvvəlki yanaşması olsa da, bu yanaşma dərsliklərdə bu gün də öz əksini tapmaqdadır. Hələ bir qədər də irəli gedərək alimlərin bir qimi bu mövzunu genişləndirərək kitablara "Söz-cümlə" mövzusu ilə yanaşı, bir "Üzvlənməyən cümlələr" mövzusu da daxil etmişlər.

Cümlədən bəhs edən alimlər yuxarıda da qeyd etdiyimiz kimi cümlədə (yəni söz və söz birləşmələrinin bitkin bir məna bildirib nitq vahidinə çevrilməsi üçün) bir sıra əlamətlər – bitkinlik, modallıq, predikativlik, intonasiya və s. öz əksini tapmalı olduğunu göstərmişdir. Bu əlamətlər yoxdursa, deməli cümlənin özü yoxdur. Digər tərəfdən, əgər sözün lüğəvi mənası yoxdursa, o suala cavab vermir və hər hansı bir cümlə üzvünə aid deyilsə, onu necə cümlə üzvü adlandırmaq olar?!

**Nəticə.** Dil dəqiqliyi, riyazi dəqiqliyi sevir. Ya var, ya yox. İnsan təfəkküründə formalaşan fikir dilində və yazıda sözə çevrilməyincə o cümlə ola bilməz.

Bu cür cümlələrin, yəni bir sözlə fikrin təsdiq və ya inkar edilməsi müəyyən üslubi məqamlarla bağlıdır. Bu sahə isə məntiqin, üslubiyyatın tədqiqat obyekti ola bilər və bu haqda dərsliklərdə danışılmalıdır.

Nəyisə təsəvvürdə canlandırıb, onu adlandırmaq, təhlil etmək triqonometriyanın əsas vəzifəsidir. Orada da bir hissəyə əsaslanıb bütöv haqqında fikir söyləmək qeyri-mümkündür. Triqonometriyanın əsas vəzifəsi isə üçbucağın verilmiş üç parametri (yan tərəfi, bucağı, meridian) və s. əsasında yerdə qalanları da təyin etməkdir.

Bu cür dəqiq elmdə bir element əsasında müsbət nəticə əldə edilə bilmədiyi halda, Azərbaycan dilində lüğəvi mənası olmayan, suala cavab verməyən, cümlə üzvü vəzifəsində işlənmək hüququ olmayan bir söz, bütün fikir bildirən bir cümləni necə əvəz edə bilər.

## ƏDƏBİYYAT


1. Ə.Abbasov. Azərbaycan dilinin qrammatikası. I hissə, yeddillik və orta məktəblərin 5-6-cısinifləri üçün. Bakı, Azərnəşr, 1953.
2. Azərbaycan dilinin qrammatikası. II hissə, sintaksis, Azərbaycan SSR Elmlər Akademiyasınəşriyyatı, Bakı, 1959
3. Azərbaycan dili. Qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçünvəsait. Bakı, 2010
4. Dilçilik məcmuəsi. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. X cild, AzərbaycanSSR E A nəşriyyatı, Bakı, 1957
5. Dosent İ.Həsənov və A.Şərifov. Qramer. Orta məktəb üçün üçüncü hissə. 1. Fonetika, 2.Sintaksis. Azərnəşr Tədris – Pedaqoji şöbəsi, Bakı, 1934
6. Ə.Babazadə. Türk dili. İbtidai məktəb üçün (qramer və yazı qaydaları). Birinci hissə. AzərnəşrTədris – Pedaqoji şöbəsi, Bakı, 1934
7. Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Ali məktəb üçün dəsrlik. "Elm və təhsil" Bakı,2010
8. M.A.Şirəliyev və M. Hüseynzadə. Müasir Azərbaycan dilinin qrammatikası. Yeddiillik və ortaməktəblərin 6-7-ci sinifləri üçün, Bakı, Azərnəşr, 1957
9. Müasir Azərbaycan dili. IV cild, sintaksis. "Elm" nəşriyyatı, Bakı, 1980
10. Müasir Azərbaycan dili. Sintaksis. ADU nəşriyyatı, Bakı, 1959
11. Q.Kazımov. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2014